DİRÇƏLİŞ KUBOKU

# Qarabağ Dirçəliş Fondunun təşəbbüsü ilə təşkil olunan "Dirçəliş Kuboku" futbol turnirinin keçirilməsi haqqında reqlament

## 1. Ümumi

1.1. Bu Reqlament Qarabağ Dirçəliş Fondunun təşəbbüsü ilə turnirin təşkili və turnirdə iştirak edən komandaların və təşkilinə cəlb olunmuş digər üzvlərin hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir.

## 2. Məqsəd

2.1. Turnir aşağıdakı məqsədlər üçün keçirilir:

2.1.1. Füzuli Mərkəzi Parkında tikintisi nəzərdə tutulan idman meydançalarının tikintisi üçün vəsaitin toplanması;

2.1.2. Cəmiyyətdə ianə mədəniyyətinin təşviqi;

2.1.3. Sağlam həyat tərzinin təbliği.

## 3. Turnirə rəhbərlik və nəzarət

3.1. Turnirin keçirilməsi Fondla razılaşdırılması şərti ilə Təşkilat Komitəsi (bundan sonra - Təşkilatçı) tərəfindən həyata keçirilir.

3.2. Turnirin təşkili və keçirilməsinə nəzarət Təşkilatçı, Fondun və AFFA-nın müvafiq əməkdaşları (nümayəndələri) tərəfindən həyata keçirilir.

## 4. Turnirdə iştirak qaydaları

4.1. Turnirdə bir komanda ancaq bir ad altında iştirak edə bilər. Turnirin gedişatında komandanın adının dəyişdirilməsi yalnız Təşkilatçının rəsmi razılığı əsasında olmalıdır.

4.2. Turnirdə iştirak üçün komandalar Təşkilatçı tərəfindən müəyyən edilmiş qeydiyyat vərəqəsini doldurmalıdırlar.

4.3. Tərkibində minimum 10, maksimum 15 nəfər oyunçu olan və qeydiyyat vərəqəsində göstərilən ada uyğun komanda (şirkət) qeydiyyatdan keçə bilər. Bu oyunçulardan ən azı 2 nəfəri qapıçı olmalıdır.

4.4. Qeydiyyat vərəqəsində komandanın kapitanı və vitse-kapitanı mütləq qaydada qeyd edilməlidir. Komanda maksimum iki məşqçi bəyan edə bilər.

4.5. Komanda heyəti Təşkilatçı tərəfindən hazırlanan sifariş anketi vasitəsi ilə əvvəlcədən müəyyən edilmiş vaxtda təqdim olunmalıdır. Sifariş sənədləri Təşkilatçı tərəfindən yoxlanıldıqdan sonra Təşkilatçı və AFFA-nın nümayəndəsində saxlanılır.

4.6. Sənədlər tələb olunan tarixdən gec təqdim olunduğu təqdirdə komanda Turnirə buraxılmaya bilər. Tələb olunan tarix Təşkilatçı tərəfindən müəyyən olunur.

4.7. Müraciət edən ilk 40 (qırx) komandanın qeydiyyat üçün sorğularına baxılır və qeydiyyat prosesinə başlanılır. Qeydiyyat tələblərini lazımi qaydada yerinə yetirməyən komandalar qeydiyyat prosesindən kənarlaşdırıldığı təqdirdə növbəti ərizənin müraciət tarixinə uyğun olaraq digər komanda prosesə cəlb olunur.

4.8. Komandaların sayı Fondla razılaşdırıldıqdan sonra Təşkilatçı tərəfindən artırıla bilər.

4.9. Turnir başlamamışdan öncə bütün komandalar bu Reqlamentlə tanış olurlar və Reqlamentdə qeyd olunan şərtlərlə razı olduqlarını öz imzaları ilə təsdiq edirlər.

4.10. Son 3 (üç) mövsüm ərzində futbol üzrə aşağıdakı rəsmi peşəkar turnirlərdə iştirak etmiş (hər hansı komandanın rəsmi ərizəsində, o cümlədən hakimin protokolunda yer alan) futbolçuların bu turnirdə iştirakı qadağandır:

4.10.1. Premiyer liqa (PFL tərəfindən təşkil edilir);

4.10.2. I divizion (PFL tərəfindən təşkil edilir);

4.10.3. Azərbaycan kuboku (PFL tərəfindən təşkil edilir);

4.10.4. Futzal üzrə Yüksək Liqa (Azərbaycan Futzal Federasiyası tərəfindən təşkil edilir);

4.10.5. Digər ölkələrin peşəkar futbol, futzal və çimərlik futbolu turnirlərində iştirak.

## 5. Turnirdə iştirakçı qismində qeydiyyat üçün tələb olunan sənədlər

5.1. Komanda qeydiyyat üçün aşağıda qeyd olunan sənədləri Təşkilatçıya təqdim etməlidir:

5.1.1. qeydiyyat anketi (vərəqəsi);

5.1.2. komandanın oyunçu və məşqçilərinin etibarlılıq müddəti keçməmiş şəxsiyyəti təsdiq edən sənədlərinin (şəxsiyyət vəsiqəsi və ya xarici pasport) surəti (rus və digər xarici dildə olan şəxsiyyəti təsdiq edən sənədlər Azərbaycan dilində tərcüməsi notarial qaydada təsdiq edildikdən sonra təqdim olunmalıdır);

5.1.3. komandanın oyunçu və məşqçilərinin iş yerlərini təmsil etdikləri şirkətlə eyniliyinin yoxlanılması məqsədilə ƏMAS-dan (Əmək və Məşğulluq Altsistemi) əldə edilən müvafiq bildiriş (skan edilmiş və ya pdf formatda);

5.1.4. komandanın oyunçu və məşqçilərinin elektron formatda fotoşəkilləri (3x4 JPG formatda, ağ fonda);

5.1.5. komandanın Təşkilatçı tərəfindən müəyyən olunan məbləğdən az olmamaqla Qarabağ Dirçəliş Fonduna ianə etdiyini təsdiq edən müvafiq sənəd;

5.1.6. komandaların təmsil etdiyi müəssisə (şirkət) rəhbərliyi tərəfindən komandanın "Dirçəliş Kuboku" xeyriyyə minifutbol turnirində iştiraklarını təsdiq edən sənəd (skan edilmiş formada);

5.1.7. komandanın vektor formatında loqotipi.

## 6. Turnirin keçirilmə sistemi

6.1. Liqa formatında keçiriləcək Turnirdə iştirak edən komandalar hər birində 20 komanda olmaqla 2 qrupa bölünəcəklər (say Fondla razılaşdırılması şərtilə Təşkilatçı tərəfindən artırıla bilər).

6.2. Komandalar qrup oyunları zamanı öz aralarında yalnız bir oyun keçirəcəklər.

6.3. Hər qrupdan 8 komanda "play-off" mərhələsinə yüksələcək. 1 oyunluq sistemlə keçiriləcək "play-off" mərhələsində qalib olan komandalar növbəti mərhələyə adlayacaq.

6.4. Oyunlar Təşkilatçı tərəfindən tərtib olunmuş təqvimə əsasən keçirilir, təqvimə dəyişikliklər edilə bilər. Təqvim turnirin rəsmi saytında dərc ediləcək.

6.5. Komandalar oyunun başlanmasına 15 dəqiqə qalmış oyunun keçiriləcəyi meydançaya gəlməlidirlər (fors-major hallar istisna olmaqla).

6.6. Fors-major hallarına rast gəlinərsə, komanda bu haqda təcili Təşkilatçıya məlumat verməlidir. Təşkilatçı bu halları araşdırıb müvafiq qərar verməlidir.

6.7. Oyunun başlamasına 10 dəqiqə qalmış oyunun protokoluna futbolçuların ad və soyadları yazılmalıdır. Həmin vaxtda bu tələbləri yerinə yetirməyən, gecikən və ya gəlməyən komandaya texniki məğlubiyyət (0-3) veriləcək.

6.8. Komanda 3 dəfə ardıcıl və ya ümumilikdə 5 dəfə texniki məğlubiyyət alarsa turnirdən kənarlaşdırılır.

## 7. Oyunun protokolu

7.1. Oyundan öncə hər komandanın kapitanı oyunun protokolunu doldurmalıdır.

7.2. Protokolda futbolçunun adı, soyadı göstərilməlidir. Həmçinin oyun zamanı ehtiyatda olan şəxslərin adları, soyadları və vəzifələri yazılmalıdır. Oyun protokolu hər iki komandanın kapitanları tərəfindən imzalanmalıdır.

7.3. Komandalar oyundan ən azı 10 dəqiqə öncə protokolu Təşkilatçıya təqdim etməlidirlər.

7.4. Təşkilatçı oyundan öncə protokolda göstərilən bütün şəxsləri yoxlayır.

7.5. Əgər oyunun protokolu tələb olunan vaxtda təqdim olunmazsa, bu məsələyə Təşkilatçı tərəfindən baxılacaq. Reqlamenti pozan komanda cərimələrlə üzləşə bilər.

## 8. Oyun qaydaları

8.1. Bütün oyunlar aşağıdakı qaydada keçirilir:

8.1.1. oyunların hər biri 25 (iyirmi beş) dəqiqəlik iki hissədən ibarətdir;

8.1.2. hissələrarası fasilə 5 (beş) dəqiqədir;

8.1.3. hər komanda hər hissədə bir dəqiqəlik "time-out" (qısa fasilə) götürə bilər;

8.1.4. "Play-off" mərhələsində oyun bərabər bitərsə əlavə vaxt təyin olunmadan birbaşa "penalti seriyası" oynanılır. Hər komandanın 5 (beş) zərbəsindən sonra qalib müəyyən olunmasa, zərbələr qalib müəyyən olunana kimi davam etdirilir. Penalti zərbələrini yalnız sifariş protokolunda qeyd olunmuş oyunçular yerinə yetirirlər.

8.1.5. qayda pozuntusu cərimə meydançasının daxilində baş verərsə penalti zərbəsi təyin olunur. Penalti zərbəsi həm oyun, həm də "penalti seriyası" zamanı 6 metrlik məsafədən vurulur;

8.1.6. 5 qayda pozuntusundan sonra bir daha qayda pozularsa penalti zərbəsi təyin olunur.

8.1.7. oyun zamanı meydanda eyni zamanda yalnız 1 qapıçı ola bilər. 2-ci qapıçı meydana yalnız oyunçu kimi daxil ola bilər.

8.2. Oyun zamanı futbolçuların əvəzlənməsi aşağıdakı qaydada həyata keçirilir:

8.2.1. oyun ərzində hər komanda limitsiz əvəzetmədən istifadə edə bilər;

8.2.2. meydançaya daxil olmağa hazırlaşan futbolçu əvəz olunan oyunçunun meydançanı tərk etməsini gözləməlidir;

8.2.3. oyun zamanı əvəzlənmiş futbolçu yenidən meydançaya qayıda bilər;

8.2.4. məşqçi oyunçu qismində çıxış edə bilməz.

## 9. Sarı və qırmızı vərəqələr

9.1. İki ardıcıl sarı vərəqə (qırmızı vərəqəyə çevrilir) alan oyunçu meydanı tərk edir.

9.2. Meydanı tərk edən oyunçunun cəzası olduğu hissəyə şamil edilir. Oyunçu cəzanı

birinci hissədə alıbsa, ikinci hissədə onun əvəzinə digər oyunçu meydançaya daxil ola bilər. Lakin qırmızı vərəqə alan oyunçu oyunun sonunadək meydançaya daxil ola bilməz. Oyunçu iki sarı (qırmızı) vərəqəni ikinci hissədə aldığı təqdirdə komanda oyunun sonuna kimi azlıqda oynayır.

9.3. Ümumilikdə komandanın 3 oyunçusu (qapıçı daxil) meydançada qaldıqda həmin komandaya texniki məğlubiyyət verilir.

9.4. Alınan bütün sarı və qırmızı vərəqələrə görə öhdəlik komandanın (klubun) üzərinə düşür (növbəti mərhələni buraxmalı olan oyunçu oyunda iştirak edərsə, komandaya texniki məğlubiyyət verilir)

9.5. Oyunçu oyunda iki sarı vərəqə (qırmızı) alarsa növbəti oyunu buraxır. Oyunçu birbaşa qırmızı vərəqə alarsa növbəti iki oyunu buraxır.

## 10. İştirakçı komandanın öhdəlikləri

10.1. İştirakçı komandalar bu Reqlamentin hər bir bəndinə riayət etməlidirlər.

10.2. İştirakçı komandalar FİFA tərəfindən tərtib olunmuş Fair Play prinsiplərinə riayət etməlidirlər.

10.3. Komanda onu təmsil edən və ya meydançada dəstəkləyən hər hansı şəxsin (futbolçular, məşqçilər, rəsmi şəxslər, azarkeşlər və s.) davranışlarına görə məsuliyyət daşıyır.

10.4. Komandalar hakimlərə və raqiblərə hörmətlə yanaşmalı, onların işinə müdaxilə etməməli və onlara qarşı hər hansı təhqir və ya fiziki təzyiqə yol verməməlidirlər. Əks halda İntizam Komitəsi tərəfindən cəzalandırıla bilərlər.

10.5. Cəzalar komandanın müvafiq oyunçusunun bir və ya bir neçə oyundan və ya komandanın özünün Turnirdən kənarlaşdırılması formatında ola bilər.

10.6. Komanda oyunçuları meydançaya eyni formada daxil olmalıdır. Formada oyunçunun adı və ya soyadı yazıla bilər. Formada qeyd olunacaq bütün loqo və digər çap məhsulları Təşkilatçı ilə razılaşdırılmalıdır.

10.7. Komandada bir futbolçunun digər futbolçu adı ilə oyundan öncə, oyun zamanı, fasilədə oyuna buraxılma cəhdi və ya iştirakı, eləcə də Komandanın üzvü kimi qeydiyyatdan keçməyən futbolçunun oyundan öncə, oyun zamanı, fasilədə oyuna buraxmaq cəhdi və ya iştirakı saxtalaşdırma halı kimi qəbul olunur və bu hallara görə məsuliyyəti komanda daşıyır.

10.8. Komandanın oyunçuları Turnir öncəsi və turnirin gedişatı zamanı AFFA və Təşkilatçı tərəfindən yoxlanılır. Komandanın heyətində sifariş olunmuş oyunçulardan saxtalaşdırılma və ya bu Reqlamentə uyğun olmaması aşkarlanarsa, məsuliyyəti komanda daşıyır.

10.9. Komandada bu Reqlamentə uyğun olmayan 1 (bir) oyunçu aşkarlanarsa həmin oyunçu Turnirdən uzaqlaşdırılır və çıxış etdiyi komandaya həmin oyunçunun iştirak etmiş olduğu hər oyuna görə texniki məğlubiyyət verilir. Komandada bu Reqlamentə uyğun olmayan 3 (üç) oyunçu aşkarlandıqda isə komandanın özü Turnirdən kənarlaşdırılır.

## 11. Meydança

11.1. Turnirin oyunları Təşkilatçı tərəfindən müəyyən edilən futbol meydançalarında keçiriləcək.

11.2. Meydançanın dəyişməsi Təşkilatçı tərəfindən həyata keçirilə bilər.

11.3. Məşqçilər (ən çox iki) və adları oyun üçün hakim protokolunda qeyd olunan oyunçuların ehtiyat skamyalarında oturmalarına və meydançaya daxil olmasına icazə verilir.

11.4. Texniki zonada siqaret çəkmək qadağandır.

## 12. Oyunların təxirə salınması

12.1. Aşağıda göstərilən hallarda komanda oyunun təxirə salınması ilə bağlı müraciət edə bilər:

12.1.1. meydança yararsız vəziyyətdə olduğu halda;

12.1.2. fors-major hallar (baş verməsi əvvəlcədən ehtimal edilməyən və müvafiq şəraitdə qarşısının alınmasının mümkün olmaması nəticəsində şəxslərin öz öhdəliklərini yerinə yetirməsinə maneçilik törədən, ləngidən fövqəladə hallar, təbii fəlakətlər, yaxud ictimai-siyasi hadisələr) baş verdikdə.

12.2. Oyunun təxirə salınması və başqa vaxtda keçirilməsi barədə hər iki komandanın razılığı olarsa, bu barədə Təşkilatçıya ən azı oyundan bir gün öncə xəbər verilməlidir. Təşkilatçının razılığı ilə təxirə salınmış oyun digər vaxtda keçirilə bilər. Lakin bu oyun növbəti turun oyunlarının başlamasına qədər keçirilməlidir. Təxirə salınmış oyunla bağlı bütün xərclər (meydançanın icarəsi, təşkilati xərclər və s) komandaların hesabına ödəniləcək. Xərclərin həcmi Təşkilatçı tərəfindən müəyyən edilir.

## 13. Hakimlik və nəzarət

13.1. Liqanın oyunlarına Təşkilatçı, Fond və AFFA-nın müvafiq əməkdaşları (nümayəndələri) nəzarət edirlər.

13.2. AFFA nümayəndəsinin səlahiyyətinə oyuna nəzarət və hakimlər briqadasının işinə qiymət vermək daxildir. Hakimlərin işinə nəzarəti AFFA həyata keçirir.

13.3. Oyunları AFFA tərəfindən təyin edilmiş hakimlər idarə edir, hakimlik bu Reqlamentin tələbləri əsasında həyata keçirilir.

13.4. Komandalar tərəfindən hakimlərin dəyişdirilməsi ilə əlaqədar tələblər qəbul olunmur.

## 14. İntizam Komitəsinin qərarları

14.1. Verilmiş (göstərilmiş) bütün qırmızı vərəqələrə Təşkilatçı tərəfindən yaradılmış İntizam Komitəsi tərəfindən baxılır.

14.2. Oyun zamanı və oyundan sonra baş verən insidentlərlə bağlı bütün qərarları İntizam Komitəsi qəbul edir.

14.3. Komandalar və oyunçular qərarlar əsasında cəzalandırıla bilər.

## 15. Etirazlar

15.1. Etiraz verən kapitan oyundan dərhal sonra bu barədə Təşkilatçını xəbərdar etməlidir.

15.2. Etirazın verilməsi oyunun protokolunda öz əksini tapmalıdır. Bütün qeydlər yazılı şəkildə oyundan sonra protokolda əks olunmalıdır və komanda kapitanının imzası ilə təsdiqlənməlidir.

15.3. Oyunun gedişində ciddi münaqişələr baş verərsə, oyun dayandırıla bilər.

15.4. Etirazlara aşağıdakı hallarda baxılmır:

15.4.1. Penalti cərimə zərbələrinin təyin olunması;

15.4.2. Topun qapıdan keçib-keçməməsi barədə.

## 16. Mükafatlandırma

16.1. Liqada ilk 3 yeri tutan komandaların futbolçuları və baş məşqçiləri müvafiq olaraq qızıl, gümüş və bürünc medallarla və Təşkilatçı tərəfindən müəyyən olunan digər mükafatlarla təltif olunacaq.

16.2. Turnirin ən yaxşı qapıçısına, bombardirinə, asistentinə, eləcə də ən yaxşı oyunçusuna (MVP) xüsusi mükafatlar veriləcək.

## 17. Müəllif hüquqları

17.1. Turnirlə bağlı yaranmış bütün əqli mülkiyyət (komandalara aid adlar və qrafik simvollar istisna olmaqla) Təşkilatçıya məxsusdur.